# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

**“Satınalma güzəştinin tətbiqi Qaydası”nın təsdiq edilməsi və “Güzəştlərin tətbiqi Qaydasının və bölünən hissələrin məbləğinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 28 oktyabr tarixli 165 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.13-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Satınalma güzəştinin tətbiqi Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. “Güzəştlərin tətbiqi Qaydasının və bölünən hissələrin məbləğinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 28 oktyabr tarixli 165 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 648; 2016, № 7, maddə 1364; 2019, № 4, maddə 746, № 7, maddə 1334; 2020, № 9, maddə 1202; 2023, № 8 (II kitab), maddə 1265) 1-ci hissəsi ləğv edilsin.

3. Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 30 dekabr 2023-cü il

№ 495

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2023-cü il 30 dekabr
tarixli 495 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Satınalma güzəştinin tətbiqi

# QAYDASI

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 33.14-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və təkliflər qiymətləndirilərkən satınalma güzəştinin tətbiqi qaydasını müəyyən edir.

1.2. Satınalma komissiyası təklifləri qiymətləndirərkən, yerli mənşəli satınalma predmeti üzrə təqdim edilən və formal tələblərə uyğun təkliflərin xeyrinə idxal olunan eyni satınalma predmeti (malların idxalı ilə bağlı bütün gömrük ödənişləri, nəqliyyat və sığorta xərcləri, işlərə və xidmətlərə münasibətdə isə vergilər və qanunla müəyyən olunan digər xərclər nəzərə alınmaqla) üzrə təklif olunan qiymətlərə 20 faizə qədər həcmdə güzəştli düzəliş tətbiq edir.

1.3. Yerli malların, işlərin və xidmətlərin xeyrinə tətbiq olunan güzəştli düzəlişin faizi həcmində məbləğ müqayisə məqsədilə həmin güzəştli düzəlişin tətbiq edildiyi malın, işin və xidmətin məbləğindən çıxılır.

## 2. Malın yerli mənşəli olmasının müəyyən edilməsi və güzəştli düzəlişin tətbiqi proseduru

2.1. Malın yerli mənşəli olması satınalmada iştirak etmək istəyən hüquqi və fiziki şəxslərin müraciətinə əsasən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin (bundan sonra - Xidmət) tabeliyində "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra - Mərkəz) tərəfindən malın istehsalçısı olan təchizatçıya münasibətdə ona təqdim edilən malın mənşəyi barədə rəy və Xidmət tərəfindən verilən malın mənşə ölkəsini təsdiq edən sertifikat əsasında, malın istehsalçısı olmayan təchizatçıya münasibətdə isə ona təqdim edilən malın mənşə ölkəsini təsdiq edən sertifikat əsasında müəyyən edilir.

2.2. Malın mənşəyi barədə rəy və ya malın mənşə ölkəsini təsdiq edən sertifikat təqdim edilmiş mallara satınalan təşkilat tərəfindən 20 faiz güzəştli düzəliş tətbiq edilir.

2.3. Malın mənşəyi barədə rəyin alınması üçün istehsalçı olan təchizatçılar tərəfindən Mərkəzə ərizə ilə müraciət edilir. Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:

2.3.1. təchizatçının təklif etdiyi malı istehsal etmək üçün istehsal sahəsinin, texniki təchizatının, işçi heyətin mövcudluğunu təsdiq edən sənədlər;

2.3.2. malın istehsalında istifadə olunan xammal, yarımfabrikat, yaxud məhsulların hazırlanmasında iştirak edən digər materialların alınmasını təsdiq edən sənədlər (olduğu halda);

2.3.3. malın istehsalında istifadə olunan xammal, yarımfabrikat, yaxud məhsulların hazırlanmasında iştirak edən digər materiallar xarici ölkə mənşəli olduğu halda, yəni advalor pay qaydası tətbiq olunduqda, xarici mənşəli xammal və komponentlərin dəyərinin təqdim edilən malın franko-zavod qiymətində faizlə payı barədə müvafiq qaydada təsdiq olunmuş arayış (zəruri hallarda kalkulyasiya);

2.3.4. təchizatçı təklif etdiyi malın istehsalçısı olmadığı halda, həmin malın əldə edilməsini təsdiq edən sənədlər;

2.3.5. təchizatçının təklif etdiyi malın adı, miqdarı, hər bir mal vahidinin xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə kodu;

2.3.6. təchizatçının təklif təqdim etmək istədiyi satınalmanın şərtlər toplusu;

2.3.7. dərman vasitələrinin istehsal prosesinin qablaşdırma mərhələsi ilə bağlı dərman vasitələri istehsalı ilə məşğul olmaq üçün verilmiş lisenziyanın surəti.

2.4. Ərizənin qeydə alındığı tarixdən etibarən 5 (beş) iş günü müddətində bu Qaydanın 2.3-cü bəndində qeyd edilən sənədlərin, istehsalçının məlumatlarının və istehsal obyektinə baxışın nəticələrinin nəzərə alınması ilə aparılan ekspertizanın nəticələrinə əsasən Mərkəz tərəfindən malın mənşəyi barədə rəy təqdim edilir. Təklif edilən malın istehsalında istifadə olunan yerli xammal-materialların, həmçinin yerli işçi qüvvəsinin ümumi həcmi 50 faizdən artıq olduqda mal yerli hesab edilir.

## 3. Xidmətin yerli mənşəli olmasının müəyyən edilməsi və güzəştli düzəlişin tətbiqi proseduru

3.1. Xidmətin yerli mənşəli olmasının müəyyən edilməsi məqsədilə təchizatçı öz təklifinə aşağıdakı sənədləri əlavə edir:

3.1.1. təchizatçı ilə rəsmi əmək müqaviləsi əsasında çalışan işçilərə münasibətdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Əmək müqaviləsi bildirişi” altsistemindən satınalma predmetinin icrasına cəlb edilməsi nəzərdə tutulan işçilərin məlumatlarının çıxarışı;

3.1.2. satınalma predmetinin icrasına cəlb edilməsi nəzərdə tutulan işçilərə münasibətdə həmin şəxslər tərəfindən doğruluğunun imza ilə təsdiq edilməsi şərtilə aşağıdakı məlumatların olduğu arayış:

3.1.2.1. adı, soyadı və atasının adı;

3.1.2.2. şəxsiyyət vəsiqəsinin FİN kodu;

3.1.2.3. vəzifəsi və görəcəyi işlərin qısa təsviri;

3.1.2.4. iş müddəti (ay olaraq);

3.1.2.5. aylıq əməkhaqqı məbləği;

3.1.2.6. ümumi ödəniləcək məbləğ (iş müddəti aylıq əməkhaqqına vurulmaqla hesablanır);

3.1.3. bu Qaydanın 3.1.1-ci və 3.1.2-ci yarımbəndlərində nəzərdə tutulan halların müəyyən edilməsi üçün hesabat-kalkulyasiya sənədi.

3.2. Təklif edilən xidmətin icrasında istifadə olunacaq yerli malın və Azərbaycan Respublikasının vətəndaşlarına ödənilməsi nəzərdə tutulan əməkhaqqı fondunun ümumi həcmi 50 faizdən artıq olduqda xidmət yerli hesab edilir və 20 faiz güzəştli düzəliş tətbiq edilir.

## 4. İşin yerli mənşəli olmasının müəyyən edilməsi və güzəştli düzəlişin tətbiqi proseduru

4.1. Bu Qaydanın 2-ci və 3-cü hissələrində nəzərdə tutulmuş prosedurlar nəticəsində işlərin icrası zamanı istifadə edilməsi nəzərdə tutulan yerli mənşəli hesab edilən mal və xidmətin ümumi satınalma müqaviləsindəki payının müəyyən edilməsi üçün təqdim edilmiş hesabat-kalkulyasiya sənədi (güzəştli düzəlişin hesablanmasını və tətbiqini göstərən sənəd) əsasında aşağıdakı faizlərdə güzəştli düzəliş tətbiq edilir:

| Sıra №-si | Yerli malların və xidmətlərin həcmi | Tətbiq olunan satınalma güzəştinin həcmi |
|---|---|---|
| 1. | 30%-dən 40%-ə qədər | 5% |
| 2. | 40%-dən 50%-ə qədər | 8% |
| 3. | 50%-dən 60%-ə qədər | 11% |
| 4. | 60%-dən 70%-ə qədər | 14% |
| 5. | 70%-dən 80%-ə qədər | 17% |
| 6. | 80%-dən 100%-ə qədər | 20% |

## 5. Satınalmanın yekunlaşması və satınalma güzəştinin tətbiqinə nəzarət

5.1. Satınalma komissiyası təklifləri qiymətləndirərkən və müqayisə edərkən mallara münasibətdə bu Qaydanın 2-ci, xidmətlərə münasibətdə isə bu Qaydanın 3-cü və işlərə münasibətdə isə bu Qaydanın 4-cü hissəsində nəzərdə tutulan sənədlərə və “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 33-cü maddəsinə uyğun olaraq baxır, imtina üçün əsaslar olmadıqda güzəştli düzəlişi tətbiq edir və bu barədə yekun protokolda qeydlər aparır.

5.2. Təchizatçı, o cümlədən malın mənşəyi barədə rəy təqdim etmiş təchizatçı bağlanılmış müqavilə üzrə güzəştli düzəlişin tətbiq edildiyi hər bir malı mənşə ölkəsini təsdiq edən sertifikatın əsli və ya notarial qaydada təsdiq edilmiş surəti ilə birlikdə satınalan təşkilata təqdim etməlidir.

5.3. Təchizatçı bağlanılmış müqavilə üzrə güzəştli düzəlişin tətbiq edildiyi hər bir işçiyə münasibətdə bu Qaydanın 3.1.2-ci yarımbəndində nəzərdə tutulan arayışda qeyd edilən məbləğin ödənilməsi barədə həmin işçinin bank hesabına köçürülməni təsdiq edən bank tərəfindən verilmiş çıxarışı satınalan təşkilata təqdim etməlidir.

5.4. Təchizatçı tərəfindən bu Qaydanın 5.2-ci və 5.3-cü bəndlərində nəzərdə tutulan malın mənşə ölkəsini təsdiq edən sertifikatın və işçinin bank hesabına köçürülməni təsdiq edən bank tərəfindən verilmiş çıxarışın təqdim etməməsi onun öz öhdəliklərini

icra edə bilməməsi kimi qiymətləndirilir və icra təminatının geri qaytarılmaması ilə nəticələnir.

"Satınalma güzəştinin
tətbiqi Qaydası"na

**əlavə**

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinə

_______________ tarixində ________________________________________
(gün, ay, il) (istehsalçının adı, ünvanı və VÖEN-i)
_______________________________________________________ tərəfindən

## ƏRİZƏ

Xahiş edirəm_______________ tarixində _____________________tərəfindən
(gün, ay, il, saat) (satınalan təşkilatın adı, ünvanı)
elan edilmiş _____________________________________________________
(satınalma predmeti)
satınalmada iştirak məqsədilə təklifə daxil edəcəyim __________________
(kq, l, ton)
miqdarında ______________________________________________________
(yerli malın adı)
üçün malın mənşəyi barədə rəyi təqdim edəsiniz.

Mallar ________________________________________ istehsal olunmuşdur.
(istehsalçı ölkənin adı)

____________________________ _________________
(istehsalçının rəhbəri, imza) (tarix)